

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Avqust 2020

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

## “BİZ ELƏ BİR MÖHKƏM TƏMƏL YARATMIŞIQ Kİ, İSTƏNİLƏN BÖHRANLA ƏLAQƏDAR ÖZ DÜZGÜN ADDIMLARIMIZI ATIRIQ VƏ NEFTİN QİYMƏTİ HƏTTA 35 DOLLAR SƏVİYYƏSİNDƏ OLSA BELƏ, AZƏRBAYCAN BÜTÜN SOSİAL ÖHDƏLİKLƏRİ YERİNƏ YETİRƏCƏK”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2020-ci il 06 avqust tarixində keçirilən
koronavirusla mübarizə sahəsində görülən tədbirlər
və sosial-iqtisadi vəziyyətlə bağlı müşavirədəki
nitqindən



“Hökumətin təklifi ondan ibarətdir ki, neftin qiyməti 55 dollar yox, 35 dollar səviyyəsində götürülsün və ilin sonuna qədər biz öz xərclərimizi bu rəqəm əsasında planlaşdıraq.

Bu da Azərbaycan dövlətinin istənilən böhrana hazır olduğunu göstərir. Çünki biz elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək, ölkəmiz üçün lazım olan infrastruktur layihələrini icra edəcək, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi üçün əlavə vəsaitin təşkil edilməsinə də çatacaqdır”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2020-ci ilin yanvar-iyul aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 279,7 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-iyul aylarında 374,5 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

Ticarətə Hazır layihəsinin ikinci hissəsi başa çatmışdır ____ səh. 19

2020-ci ilin avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 17,0 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 20

Azərbaycan - Amerika Ticarət əlaqələrinin genişləndirilməsinə dair seminar keçiriləcəkdir ____ səh. 23

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-iyul ayları** ərzində qeyri-neft sektoru üzrə **1,35 milyard** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **iyul ayında** qeyri-neft sektoru üzrə ixrac **123 milyon** ABŞ dolları təşkil etmişdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2020-ci ilin avqust sayı təqdim edilib. 2020-ci ilin ilk yeddi ayı ərzində Azərbaycanın ixracı **9,1 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə **1 milyard 35 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyətlə bağlı qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə **98 milyon** ABŞ dolları və ya **8,6 faiz** azalıb.

Bu ilin yanvar-iyul ayları ərzində Rusiyaya **418,6 milyon**, Türkiyəyə **205 milyon**, İsveçrəyə **107,6 milyon**, Gürcüstana **84,2 milyon** və Çinə **31,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-cu ilin 7 ayı ərzində Rusiyaya qeyri-neft ixracı 5,7 faiz, İsveçrəyə 21,9 faiz və Çinə 60,9 faiz artıb.

2020-ci ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (166,5 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış

formalarda – 96,5 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (70,6 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 2020-ci ilin ilk 7 ayı ərzində ərzində meyvə-tərəvəz ixracı 359,6 milyon, pambıq lifi ixracı 71,6 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 51,3 milyon, kimya sənayesi məhsullarının ixracı 46,5 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 27,4 milyon, pambıq ipliyi ixracı 10,6 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 7,3 milyon, şəkər ixracı 9,3 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 13,7 milyon, çay ixracı 5,5 milyon ABŞ dolları təşkil edib.

2020-ci ilin iyul ayında isə qeyri-neft sektoru üzrə ixrac **123 milyon** ABŞ dolları təşkil edib. Bu ilin iyul ayında qeyri neft-qaz məhsulları ən çox mal Rusiyaya (48,3 milyon ABŞ dolları), Türkiyəyə (27,8 milyon ABŞ dolları), İsveçrəyə (11,5 milyon ABŞ dolları), Gürcüstana (7,5 milyon ABŞ dolları) və Çinə (3,4 milyon ABŞ dolları) ixrac edilib.

2020-cu ilin iyul ayında qeyri-neft sektoru üzrə ixracda albalı və gilas (16,4 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (12,1 milyon ABŞ dolları), qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 10,7 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.malarda – 21 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.

MADE IN AZERBAIJAN

## 2020-Cİ İLİN yanvar-iyul aylarında QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI AVQUST



# 2020-Cİ İLİN **iyul ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020
İXRAC İCMALI
AVQUST



# 2020-Cİ İLİN yanvar-iyul aylarında İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI AVQUST

### Tomat (pomidor)
2020: 166,5
2019: 141,2



### Qızıl
2020: 96,5
2019: 85,0



### Pambıq mahlıcı
2020: 70,6
2019: 82,2



### Fındıq ləpəsi
2020: 56,4
2019: 71,3



### Albalı və gilas
2020: 48,6
2019: 42,2



### İlkin formalı polipropilen
2020: 46,7
2019: 41,8



### Elektrik enerjisi
2020: 42,6
2019: 56,6



### Kartof
2020: 33,8
2019: 26,8



### Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen
2020: 28,1
2019: 47,1



### Digər
2020: 445,2
2019: 538,9



# 2020-Cİ İLİN **iyul ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



| Mal | 2020 | 2019 |
|---|---|---|
| Albalı və gilas | 16,4 | 12,5 |
| Pambıq mahlıcı | 12,1 | 7,3 |
| Qızıl | 10,7 | 14,7 |
| İlkin formalı polipropilen | 6,8 | 5,6 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 6,2 | 7,5 |
| Şaftalı | 4,5 | 4,0 |
| Tomat (pomidor) | 4,2 | 3,1 |
| Metanol (metil spirti) | 3,9 | 7,2 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 3,7 | 5,2 |
| Digər | 54,5 | 86,9 |

## Yanvar - iyul aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI AVQUST

### 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerji | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (Pomidor) | 24,2 |
| May | Tomat (Pomidor) | 54,6 |
| İyun | Tomat (Pomidor) | 33,8 |
| İyul | Qızıl | 14,7 |

### 2020

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (Pomidor) | 29,4 |
| May | Tomat (Pomidor) | 49,7 |
| İyun | Tomat (Pomidor) | 39,2 |
| İyul | Albalı və gilas | 16,4 |

2

# 2020-Cİ İLİN YANVAR-İYUL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2020-ci ilin yanvar-iyul ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2020-ci ilin 7 ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Land Lojistic" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "MKT İstehsalat Kommersiya" MMC, "Fruit Store" MMC, "Global Trade Group" MMC, "Sun Food" MMC, “Azagroeksport 2017” MMC, "Baku Steel Company", "Aqrovest" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “Azərtütün Aqrar Sənaye Kompleksi” MMC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və “Suraxanı Maşınqayırma Zavodu” ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2020-Cİ İLİN **yanvar-iyul aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2020-Cİ İLİN **yanvar-iyul aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI AVQUST



# 2020-Cİ İLİN **yanvar-iyul aylarında “Azərkosmos” ASC 28,1 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2020-ci ilin yanvar-iyul aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **27 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir.

2020-ci ilin iyul ayında isə “Azərkosmos” ASC dünyanın **19 ölkəsinə 6,5 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.




2020-ci ildə“Azərkosmos” ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

- ABŞ: 9,1 mln $
- Birləşmiş Krallıq: 6,7 mln $
- Fransa: 5,9 mln $
- Malayziya: 3,9 mln $
- BƏƏ: 818 min $



# 2020-ci ilin **yanvar-iyul aylarında** xaricilər Azərbaycanda **BANK KARTLARI VASİTƏSİ** ilə **302,7** milyon manatlıq əməliyyat aparmışlar

Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməmiş, mart ayından başlayaraq bu sahədə ciddi tənəzzülə səbəb olmuşdur. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-iyul aylarında Azərbaycana dünyanın 152 ölkəsindən 618,3 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,9 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması cari ilin aprel-iyul aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb olmuş və baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədləri ilə həyata keçirilmişdir.

2020-ci ilin yanvar-iyul aylarında ölkəmizə gələnlərin 29,1 faizi Rusiya Federasiyası, 26,1 faizi Gürcüstan, 15,9 faizi Türkiyə, 7,4 faizi İran, 2,1 faizi Ukrayna, 2,0 faizi Hindistan, 1,9 faizi Səudiyyə Ərəbistanı, 1,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,2 faiz olmaqla Pakistan və Qazaxıstan, hər birindən 1,1 faiz olmaqla Küveyt və Türkmənistan, 0,9 faizi Böyük Britaniya, 0,8 faizi İraq, hər birindən 0,7 faiz olmaqla Özbəkistan və Belarus, 0,6 faizi İsrail, 5,8 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

2020-ci ilin iyul ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **23 milyon** manat təşkil etmişdir. 2020-ci ilin yanvar-iyul ayında isə əcnəbilər bank kartları vasitəsi ilə **302,7 milyon** manatlıq əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

## AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | 99,8 | 88,3 | 85,2 |
| Fevral | 91,1 | 85,3 | 72,9 |
| Mart | 105,8 | 98,0 | 53,9 |
| Aprel | 109,7 | 103,2 | 19,7 |
| May | 107,3 | 100,9 | 24,3 |
| İyun | 106,7 | 115,1 | 23,7 |
| İyul | 126,3 | 134,6 | 23,0 |
| CƏMİ | 746,7 | 725,4 | 302,7 |

3

# AZEXPORT.AZ PORTALINA 2020-CI İLİN YANVAR-İYUL AYLARINDA 374,5 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri**
**1 milyard 959,3 milyon** ABŞ dolları
təşkil etmişdir

2020-ci ilin yanvar-iyul aylarında Azexport.az portalına **374,5 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 7 ayında portal daxil olan ixrac sifarişləri dəyər baxımından 8 faiz artmışdır.

2020-ci ilin iyul ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 55 milyon ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq ayı ilə müqayisədə 264 faiz artmışdır.

Cari ilin iyul ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq mahlıcı və pambıq yağı, fındıq ləpəsi, pomidor, tütün, toyuq əti, alma, toyuq yumurtası, quru süd, qənnadı məhsulu, şərab, tikinti materialı, mühərrik yağı, kosmetik vasitə, sarımsaq, nar şirəsi, uşaq bezi, Naftalan yağı və s. mallara daxil olub.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2020-ci ilin 31 iyul tarixinə kimi (43 ay ərzində) Azexport.az portalına dünyanın **141 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 959,3 milyon** ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## Azexport.az PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ (milyon ABŞ dolları ilə)




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**
İyun - **45,6**
İyul - **55,0**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il | 2020-ci il |
|---|---|---|---|
| **CƏMİ - 475** | **CƏMİ - 514,1** | **CƏMİ - 595,7** | **CƏMİ - 374,5** |



Son **43 ay** ərzindəki sifarişlərin cəmi - **1 953,3**

# 2020-Cİ İLİN **iyul ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Pambıq və pambıq yağı



Fındıq



Pomidor



Tütün



Quş əti



Alma



Toyuq yumurtası



Quru süd



Qənnadı məhsulu



Şərab



Tikinti materialı



Mühərrik yağı



Kosmetik vasitə



Sarımsaq



Nar Şirəsi



4

# TİCARƏTƏ HAZIR LAYİHƏSİNİN İKİNCİ HİSSƏSİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Azexport.az" portalının "ITC" (İnternational Trade Center) ilə birlikdə "Ticarətə Hazır: e-Logistics" layihəsi çərçivəsində 2020-ci il 04 -14 avqust tarixlərində keçirilən təlimləri yekunlaşmışdır.

Azexport.az portalının rəhbəri Ayxan Qədəşov bildirmişdir ki, "Zoom" tətbiqi vasitəsilə onlayn olaraq həyata keçirilən təlimə ümumilikdə 150-dən artıq sahibkar qatılmışdır.  Təlimlər əsasən Sinqapur Loqistika Assosiasiyasının idarə heyətinin üzvü, ASEAN-nın və digər nüfuzlu qurumların nümayəndəsi olan EE Khong Kie, Max tərəfindən tədris olunmuşdur. İngilis dilində tədris olunan təlimlər sinxron olaraq Azərbaycan dilinə də tərcümə edilmişdir. Təlim ərəfəsində iştirakçılara loqistika əməliyyatları, loqistika infkrastrukturu, COVID-19 dövründə loqistikanın təşkili, həmçinin, beynəlxalq loqistikanın siniflǝndirilməsinə dair geniş məlumatlar təqdim olunmuşdur.

Qeyd edək ki, Təlimlərdə 70 faizdən artıq iştirak göstəricisi olan 39 iştirakçıya "QR kod" qorunma nişanı ilə təchiz olunmuş elektron sertifikat verilib.



5

# 2020-Cİ İLİN AVQUST AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 19,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2020-ci ilin avqust ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən 80 dəfə müraciət daxil olunub. Ümumilikdə **93 ədəd sertifikat** (65 ədəd mənşə, 20 ədəd baytarlıq, 7 ədəd Qida təhlükəsizliyi sertifikatı, 1 ədəd CİTES) verilib.

Cari ilin avqust ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **19,5** (19,486,883.95) **milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Avqust ayında "Baku Steel Company", "AzərGold", "T. Əhmədov adına AZNAR", "Ekokat", "Sun Food", "Aztol-Alat", "ATENA", "CAMAL", "Aspi-Agro", "AzVarvara", "Agro Export Azerbaijan", "Mərəndi", "Fors", "Organic Meat", "Milk-Pro", "Azərtürk Heyvançılıq", "Elif Səbinə" şirkətləri və fiziki şəxs olaraq İsmayılov Asəm, Məmmədquluyev Qulu müraciət edərək sertifikat əldə etmişlər. Qeyd olunan hüquqi və fiziki şəxslər tərəfindən nar, alma, albalı, portağal, şirələri, narşərab, üzüm şərabı, Savalan şərabları, bitki və günəbaxan yağları, bitki tərkibli kərə yağı, ketçup, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü, pendir, qiymətli metallar, dondurma məhsulları üçün vafli, biyan kökü, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, qamış, iribuynuzlu heyvan mədəsi, duzlanmış təmizlənmiş qoyun bağırsağı, iribuynuzlu heyvanın qat-qat omasumu, tullantı qida yağları, elektron aparatların təmizlənmiş tullantıları, bitum, polad armatur yayması, polad boru, polad kvadrat pəstahın ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən şirkətlər arasında "AzərGold", "Baku Steel Company", "T. Əhmədov adına AZNAR", "ATENA", məhsullar arasında isə qiymətli metallar, polad armatur yayması, polad boru, meyvə şirələri, pendir ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 19 ölkəyə- İsveçrə (72%), Rusiya (9%), Gürcüstan (8%), Türkiyə (3%), digər ölkələrə (8%)- (ABŞ, Almaniya, Avstraliya, Belarusiya, Hindistan, İraq, Vyetnam, Fil Dişi Sahili, Ukrayna, Polşa, Sinqapur, Özbəkistan, Qazaxıstan, İsrail, Honkonq) ixrac edilmişdir.

Ixrac statistikasına nəzər yetirdikdə 2019-cu ilin avqust ayı ilə müqayisədə ixracda **7,9 milyon** ABŞ dolları dəyərində artım müşahidə olunmuşdur.

Bu ilin avqust ayında AQTA-dan **6 subyekt** qeydiyyatdan keçmişdir.

Cari ilin avqust ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **356,4** (356,403) **min** ABŞ dolları dəyərində idxal fitosanitar icazəsi üçün müraciətlər daxil olmuşdur. Sertifikat alan şirkətlər arasında "Binə Agro", "Agro Alliance", "Aras", "Pozitron" şirkətləri və fiziki şəxs olaraq Fətiyeva Xatirə var.

# 2020-Cİ İLİN **avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**









## CARİ İLİN **avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN** ölkələrə üzrə bölgüsü **(%)**

- İSVEÇRƏ **72,0%**
- GÜRCÜSTAN **9,0%**
- RUSİYA **8,0%**
- TÜRKİYƏ **3,0%**
- DİGƏR **8,0%**



6

# AZƏRBAYCAN - AMERİKA TİCARƏT ƏLAQƏLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİNƏ DAİR SEMİNAR KEÇİRİLƏCƏKDİR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı sahibkarların Azərbaycan məhsullarını Amerika bazarlarına daha rahat çıxara bilməsi məqsədilə "AmCham Azerbaijan" və Amerikanın "MİTA – Full Service Marketplace Agency" ilə birgə mərhələli seminarlar keçirəcəkdir.

Seminarlar zamanı iştirakçılarla Amerika bazarının tələblərinə uyğun olaraq bazar araşdırmasının aparılması, məhsul seçimi, bazara giriş strategiyası, logistika üzrə tərəfdaşın müəyyənləşdirilməsi, məhsulların sertifikatlaşdrılması, gömrük prosedurlarının həyata keçirilməsi, məhsulların "Amazon", "WallMart" və digər platformalar vasitəsi ilə satışa çıxarılması, həmçinin, Amerikada şirkətin təsis olunması, bank və vergi prosedurlarının planlaşdırılması kimi mövzularda müzakirələr aparılacaqdır.

Seminarlar "MicrosoftTeams" vasitəsi ilə 2, 4, 7, 9 sentyabr tarixlərində onlayn olaraq həyata keçiriləcəkdir.

Ödənişsiz olaraq  təşkil olunacaq seminarlar əsasən "Selling on Amazon" kitabının müəllifi,  Amerikanın "MİTA – Full Service Marketplace Agency"-nin təsisçisi Deniz Ölmez və "Bacak LLC"-nin təsisçisi, maliyyə məsələləri üzrə ekspert Ozan Bacak tərəfindən Türk dilində keçiriləcəkdir.

Qeydiyyat linki: http://training.ereforms.org/



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

